Caspian Engineering Solutions
Warranty of Quality

# KSƏTƏM (Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit) siyasəti

"Caspian Engineering Solution" MMC-nin cari siyasəti keyfiyyət, sağlamlıq, təhlükəsizlik, etimad, müştəri xidmətləri və ətraf mühit imkanları ilə əlaqədar bütün cari və potensial müştəriləri üçün yüksək səviyyətli xidmətləri təmin etməyi nəzərdə tutur.

"Caspian Engineering Solution" MMC KSƏTƏM siyasətinin yayılması, icra edilməsi, başa düşülməsi və bütün səviyyələrdə təmin edilməsi üçün aşağıda sadalanan bütün zəruri addımları atır

- İnşaat sahələrində, laboratoriya sınaqlarında və təhlükəsiz iş mühitində təhlükəsizlik təcrübə;
- Daimi təkmilləşdirmə və çirklənmənin qarşısının alınması;
- Bütün müəyyən edilmiş risklərin qiymətləndirilməsi, eyni zamanda müvafiq təhlükəsizlik tədbirlərinin yaradılması;
- Sahədə və layihədə işləyən işçi heyətinin təhlükəsizlik bacarıqlarının daimi şəkildə inkişaf etdirilməsi, eyni zamanda təhlükəsizlik və ətraf mühitin qorunması sahəsində qəza hallarının qarşısının alınması tədbirlərinin işlənib hazırlanması;
- Müvafiq hüquqi tələblərə uyğunluluq, eyni zamanda şirkətin rəhbər tutduğu ətraf mühit aspektləri üzrə digər tələblər;
- Zədələnmənin, xəstəliklərin yaranmasının qarşısının alınması və daimi inkişaf.

"Caspian Engineering Solution" MMC daima müştərilərin artan tələblərinə cavab verməyi inteqrəedilmiş təhlükəsizlik, ətraf mühit və keyfiyyətin idarəedilməsi sisteminidə daimi olaraq inkişaf etdirməklə həyata keçirməli, eyni zamanda işçilərimiz və geniş cəmiyyətimiz hər zaman Azərbaycan qanunvericiliyi qarşısında məsuliyyət daşıyaraq bu prosesi yerinə yetirməlidir. Buraya aktiv iştirak, işçilərin ideyalarının təşviqatı da daxildir. Məlumat yeniliyinin təmin edilməsi üçün təşkilat ən azı ildə bir dəfə hüquqi və digər tələbləri nəzərdən keçirərək bu prosesi daim aktiv saxlayır.

Bu KSƏTƏM standartları aşağıdakı tələblərə cavab verən QHSEMS prinsiplərini rəhbər tutacaqdır:

- Keyfiyyətin idarəedilməsi standartı ISO 9001: 2015
- İşçi sağlamlığı və təhlükəsizlik standartı ISO 45001:2018
- Çirklənmənin qarşısının alınması və ətraf mühit standartə ISO 14001:2015

Proseslərin effektiv şəkildə icra edilməsinin təmin edilməsi üçün bizim korporativ hədəflər və gözləntilər rəhbərlik tərəfindən nəzərdən keçiriləcək, ölçüləcək və analiz ediləcəkdir. Ən azından hər 12 aydan bir hüquqi və digər tələblərə uyğunluluq qiymətləndiriləcək və CES bu periodik qiymətləndirmələrin nəticələrini saxlayacaqdır.

Risklərin nəzarət altında saxlanması və monitorinq olunması üçün intqrasiya edilmiş idarəetmə sistemi normal biznes qərarlarının verilməsinə şərait yaradacaq və standartlara uyğunluluğu yoxlayacaqdır. Bütün işçilər tərəfindən bu siyasətə, hədəflərə və əlaqədar prosedurlara riayət olunmalıdır.

Caspian Engineering Solution MMC üçün işləyən hər bir kəs KSTƏM-ə riayət etməlidir. Bizim şirkətimiz üçün hər hansı bir işçi təhlükəli işi saxlamaq hüququna malikdir. Hazırkı siyasət bizim üçün işləyən hər bir işçi tərəfindən başa düşülmüş, yayılmış və nəzarət altında təmin edilmişdir, hər bir işçi özünün KSTƏM öhdəlikləri haqqında məlumatlı olmalıdır.

Siyasət çərçivəsində KSTƏM hədəfləri və məramlarının tətbiqi üçün şərait yaradılacaq, ictimai və holdinq müştəriləri, satıcı və təchizatçılar üçün əlverişli olacaqdır.

Camaləddin Əliyev

Direktor

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT CASPIAN ENGINEERING SOLUTIONS LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC